

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 24 (23.186)

*2 fevral 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

* * *

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Sabir və Umud Şirinov qardaşları ilə görüşüblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 31 yanvar tarixli sərəncamları ilə 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə və dövlət gənclər siyasətinin həyata keçirilməsində, gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmiş, mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən bir qrup şəxs isə 2019-cu il Gənclər üçün Prezident mükafatına layiq görülmüşdür. Onlar arasında Naxçıvan Muxtar Respublikasında gənclər hərəkatının formalaşmasında xidmətləri olan və fərqlənən gənc də vardır.

**Cabbarov Azad Vaqif oğlu**

3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilmişdir.

**Mirzəmmədova Nigar Mübariz qızı**

2019-cu il Gənclər üçün Prezident mükafatına layiq görülmüşdür.




*1997-ci il fevralın 1-də ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan gənclərinin I forumunun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.*

*2 fevral Gənclər Günüdür*

## Muxtar respublika gəncləri hərtərəfli qayğı əhatəsindədir

***“Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir”***, – deyən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlamdüşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Dahi rəhbərin təşəbbüsü ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasının əsası qoyulmuşdur. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmiz müstəqillik qazandıqdan sonra da milli kadr təminatında əsas amil olmuşdur.

Ümummilli liderimiz müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı da gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün lazımi şərait yaratmışdır. Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qanunlar qəbul olunmuş, bir sıra fərman və sərəncamlar imzalanmışdır. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Bu gün ulu öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlib. Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə nəinki regionda, ümumiyyətlə, dünyada tanınır və qəbul olunurlar.

Sağlam və intellektual gənc nəslin yetişdirilməsi hər bir xalqın əsas strateji hədəflərindəndir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin əsasını təşkil edir. Bu gün ölkə Prezidentinin gəncliyə göstərdiyi qayğının nəticəsidir ki, Azərbaycanda ölkəmizin gələcəyinin təminatına çevrilən gənclik formalaşıb. Müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, öz həyatını qurarkən öncə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

Muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyüməsi, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün bizim qarşımızda bir vəzifə durur: Mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Muxtar respublikamızda gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər görülür. Muxtar respublikamızda Gənclər Mərkəzi, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər saymaqla bitməyən obyektlər tikilmiş və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilmişdir.

Gəncliyə qayğı gələcəyə qayğıdır. Ona görə də gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında” fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının davamıdır. Bu fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmişdir. Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, gənclərin inkişafı, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu amil nəzərə alınaraq muxtar respublikada idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, Uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənclərin hərtərəfli böyüməsinə xidmət edir. Yaradılan imkanlardan istifadə edən gənclər Azərbaycan və dünya miqyaslı yarışlarda və çempionatlarda uğurla iştirak edərək Naxçıvan idman məktəbinin adını yüksəldirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yeni yaşayış kompleksləri, Babək qəsəbəsində yaşayış binası tikilərək istifadəyə verilmiş, gənclərin güzəştli şərtlərlə mənzil sahibi olmaları üçün tədbirlər görülmüşdür.

“Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı”na uyğun olaraq hər il ölkəmizdə internet üzərindən aparılan səsverməyə əsasən bir şəhər Gənclər Paytaxtı seçilir. Ötən il Naxçıvan şəhəri ən yüksək səs toplayaraq 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilmişdir. Bu, muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin bəhrəsi, gələcəyimiz olan gənclərə göstərilən qayğının və onlar üçün yaradılan şəraitin nəticəsidir. Naxçıvan bu adı uğurla doğrultmuş, həmçinin Naxçıvan şəhərində bir sıra ölkə və beynəlxalq səviyyəli tədbirlər keçirilmişdir.

Gənclərin hərtərəfli inkişafı, təhsilli, dünyagörüşlü, vətənpərvər və sağlam böyüməsi etibarlı gələcəyimizin təminatıdır. Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin hədəfi də bu mühüm vəzifənin uğurla yerinə yetirilməsidir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Gənclər Gününə həsr olunmuş elmi-praktik konfrans

*Naxçıvan Müəllimlər İnstitutunda 2 fevral – Gənclər Gününə həsr olunmuş “Dövlət gənclər siyasəti” mövzusunda elmi-praktik konfrans keçirilib.*

Konfransı institutun rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan uğurlu gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da müasir gəncliyin inkişafı üçün əlverişli şərait yaradılıb. Bu gün doğma diyarımızda gənclərin yüksək vəzifələrdə təmsil olunması onlara inamın və qayğının ən bariz nümunəsidir.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Müəllimlər İnstitutu ərazi ilk partiya təşkilatının sədri, pedaqogika və psixologiya kafedrasının baş müəllimi Çapay Quliyev məruzə ilə çıxış edərək Azərbaycanda gənclər siyasətinin uğurlarından ətraflı bəhs edib. Məruzəçi bildirib ki, gənclərimizin sosiallaşmasını stimullaşdırmaqla onların cəmiyyətin aparıcı qüvvələrinə inteqrasiyası yüksək tələblər səviyyəsində təmin edilir. Bu inteqrasiya gənclərdə vətənpərvərlik və soykökə bağlılıq, Vətənin gələcəyinə inam və məsuliyyət hisslərini yaradıb. Görülən işlərin sistemli aparılması və gələcəyə planlı şəkildə istiqamətləndirilməsi gəncliyin öz üzərinə düşən məsuliyyəti dərindən dərk etməsinə səbəb olub.

Konfrans institutun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, Pedaqoji fakültənin III kurs tələbəsi Günel Məmmədovanın “Dövlət gənclər siyasətinin həyata keçirilməsində tələbə-gənclərin fəallığı”, Yeni Azərbaycan Partiyası Naxçıvan Müəllimlər İnstitutu Gənclər Birliyinin sədri, Təbiət və incəsənət fakültəsinin III kurs tələbəsi Ruhid İslamlının “Naxçıvan Muxtar Respublikasında gənclərin inkişafına yaradılmış şərait” mövzularında məruzələri ilə davam edib. Məruzələr ətrafında müzakirələrdə tələbə-gənclər xüsusi fəallıq göstəriblər.

Sonda bir qrup gənc tələbəyə mükafatlar təqdim olunub, Gənclər Günü ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

*Ulu Tanrı bu qədim yurd yerindən səxavətini əsirgəməyib. Torpaqları bərəkətlidir. İnsanları isə sözün həqiqi mənasında, əsl torpaq adamlarıdır. Qonaqpərvərliklərinə, əliaçıqlıqlarına söz ola bilməz. Ağsaqqal sözü dəstəlilər üçün yazılmamış qanundur. Süfrələrinin günü-gündən artan bərəkəti də, düşünürəm ki, onların zəhmətə bağlılıqları və ağsaqqala böyük ehtiram göstərmələrindəndir. İlin bütün fəsillərində heç bir dəstəlinin süfrəsi təzə-tər göyərtisiz olmur. Yəni hər bir kənd adamının həyatında bir və ya bir neçə istixana var. Yeri gəlmişkən onu da qeyd edək ki, Ordubad rayonunun əhalisinin böyük bir qismini tərəvəz məhsulları ilə təmin edən bu yaşayış məntəqəsinin sakinləridir. Elə Naxçıvan şəhərinin dükan-bazarlarında da ilboyu bu kəndin məhsulları çoxluq təşkil edir. Maraqlı fakt odur ki, Dəstədə ən yüksəkvəzifəli şəxsdən tutmuş ən sadə kənd adamına kimi hər kəs öz torpağında bazar üçün nə isə yetişdirir.*

Müasirləşən kəndlərimiz

# Dövlət qayğısının yeni ünvanı: *Qəsəbə timsallı Dəstə kəndi*



Doğulub boya-başa çatdığım yaşayış məntəqəsindən 6-7 kilometr aralı olan Dəstəni həmişə belə görmüşəm. Muxtar respublikada yeni təsərrüfat formasının – ailə təsərrüfatlarının tətbiq olunduğu bir dövrdə Dəstədə torpağa bağlılıq daha da artıb. Bir məsələni xüsusi vurğulamağı lazım bilirəm. Sovet dönəmində bu kənddəki ictimai təsərrüfatda 1000 hektardan artıq ərik bağı olub. Bu bağlardan tədarük edilən məhsullar o vaxt rayon mərkəzində fəaliyyət göstərən konserv zavodunu xammalla təchiz etməklə yanaşı, Rusiyanın Moskva şəhərindən tutmuş SSRİ-nin ən ucqarlarında belə, özünə alıcı qüvvəsi tapmışdı. Ötən əsrin sonlarında o bağlardakı ağacların kökünə balta vuruldu. Ancaq ata-babalarımızın "Su gələn arxa bir də gələr" məsəli özünü bu kənddə də doğruldub. Artıq Dəstənin meyvəçilik şöhrəti özünə qaytarılmaqdadır. Son illərdə muxtar respublikada həyata keçirilən bağsalma və yaşıllaşdırma tədbirlərində dəstəlilərin fəallığı təbiidir. Çünki onlar tarixən bu işlə məşğul olublar. Onu da qeyd edək ki, bu gün kənddə onlarla ailə tingçilik təsərrüfatı yaradıb. Belə təsərrüfat sahiblərindən biri Yusif Yusifov deyir ki, bir neçə ildir, bu işlə məşğuldur. Tingçilik həm iqtisadi cəhətdən sərfəli gəlir sahəsidir, həm də savab və xeyirxah işdir. Bu işdə o, ailəsi ilə birgə çalışır. Yetişdirdikləri tinglərə muxtar respublika ilə yanaşı, paytaxt Bakı şəhərindən də sifarişlər gəlir. Əsasən, yerli meyvə sortlarına üstünlük verən belə təsərrüfatların sayı getgedə artmaqdadır.

Dəstəlilər həm tərəvəzçilikdə, həm də meyvəçilikdə göstərdikləri fəallıqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş və uğurla başa çatdırılmış "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na öz töhfələrini veriblər. 2016-cı il 8 fevral tarixdə imzalanan ikinci Sərəncamın uğurlu icrasında dəstəlilər bu sərfəli məşğuliyyət sahələrində öz fəallıqlarını daha da artırıblar. Bunun ifadəsidir ki, ötən il kəndin ərazisində 4,5 hektar sahədə meyvə bağı salınıb, 3565 ədəd ting əkilib. 1 hektar sahə isə toxmacarlıq üçün ayrılıb, burada yerli ərik və badam tingləri yetişdirilir.

Dəstədə ailə təsərrüfatları çoxdur. Onlar kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olurlar. Oxucularımız da bilməmiş deyillər ki, Ordubad rayonu ölkəmizdə ən keyfiyyətli limon yetişdirilən bölgədir. Hazırda Dəstə kəndində limon yetişdirməklə məşğul olan 3 ailə təsərrüfatı var. Bir ailə təsərrüfatı küknar ağacları yetişdirməyə üstünlük verib.

Ordubadda çoxlarının işlətdiyi bir ifadə var: Dəstəlilər daşdan da çörəkpulu çıxarmağı bacarırlar. Ancaq burada da onların bəxti gətirib ki, Dəstə kəndinin torpaqları çox münbitdir. Bu torpaqlarda meyvəçilik və tərəvəzçiliklə yanaşı, digər kənd təsərrüfatı məhsulları yetişdirirlər. Bu sahələr içərisində taxılçılıq ən önəmli yerlərdən birini tutur. Hər il bu yaşayış məntəqəsinin torpaq mülkiyyətçilərinin çoxu öz sahəsinin böyük bir hissəsini taxılçılıq üçün ayırır. Cari ilin məhsulu üçün dəstəli taxılçılar ötən ilin payızında 285 hektar sahədə taxıl əkiblər. Torpaq mülkiyyətçiləri əlverişli hava şəraitindən istifadə edərək yazlıq taxıl əkini üçün nəzərdə tutduqları sahələrdə şum qaldırılmasını da başa çatdırıblar. Kənddə quruculuq tədbirləri çərçivəsində suvarma suyunu təmizləmək üçün 2 hovuzun tikilməsi, "Dəstə-2" nasos stansiyasının



250 metrlik təzyiqli boru xəttinin yerinin dəyişdirilməsi, Vənənd çayında 500 metr istiqamətləndirici bəndin tikilməsi, 200 metr sahilbərkitmə işlərinin aparılması, həmçinin aqrolizinq xidmətlərindən səmərəli istifadəyə şərait yaradılması, bir neçə il əvvəl kənd ərazisində un dəyirmanının istifadəyə verilməsi taxılçılığa, ümumilikdə isə əkinçiliyə marağı xeyli artırıb.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Zülfü Şirinov deyir ki, 1149 təsərrüfatda 5124 sakinin yaşadığı bu qədim yaşayış məntəqəsi torpağa bağlılığın, zəhmətsevərliyin canlı nümunəsidir. Torpaq onların daimi iş yeridir. Sovet dönəmində də belə olub. Ancaq o vaxt quruluşun müəyyən qadağaları torpaq kimi qiymətli bir sərvətdən öz gücləri səviyyəsində istifadə etməyə dəstəlilərə imkan vermirdi. Bu gün artıq kəndli öz torpağının həqiqi sahibidir, həmin torpaqlarda kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə imkan qazanıb. Bu da onların həyat tərzində, yaşayış səviyyəsində özünü göstərir.

Zülfü Şirinovun sözlərinə görə, Dəstədə üç böyük topdansatış tikinti materialları, 2 mebel mağazası, 2 plastik qapı-pəncərə hazırlanan sex, 1 şadlıq sarayı, 2 ticarət mərkəzi, 3 mağaza, 1 çörəkbişirmə sexinin fəaliyyət göstərməsi sakinlərin son illərdə qazandıqları uğurların göstəricisidir. Kəndin, demək olar ki, hər evinin qapısında bir minik avtomobili var. Dəstədə hər il 15-20 yeni ev tikilir.

Cari ildə Dəstədə yeni obyektlərin istifadəyə verilməsi isə kənd sakinləri tərəfindən onlara göstərilən davamlı qayğı kimi minnətdarlıqla qarşılanır. Muxtar respublikamızda tərəqqi və sabitliyin bəhrəsi olan belə quruculuq tədbirləri, eyni zamanda insan amilinə verilən yüksək qiymətin ifadəsi kimi dəyərləndirilir. Kənddə aparılan kompleks tədbirlər hesabına məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilərək, yollar yenidən qurularaq istifadəyə verilib.

Onu da deyək ki, 2019-cu ildə muxtar respublikamızda ilk məktəb binası Dəstə kəndində pedaqoji kollektivə ərməğan edilib. Məktəbin direktoru Abbas Qasımovun sözlərinə görə, bu yaşayış məntəqəsində güclü maarifçilik ənənələri formalaşdırılıb. Mərhum dilçi professorlar Şirəli və Nəsir Məmmədovlar, tibb üzrə fəlsəfə doktorları Əkbər İsgəndərov və Rizvan Əliyev orta təhsillərini Dəstə kənd orta məktəbində alıblar. Hazırda Moskva Dövlət Universitetinin Kimya kafedrasının müdiri vəzifəsində çalışan Hüseynqulu Sadiqov, Azərbaycan Dövlət Dillər İnstitutunun müəllimi professor Şaban Şabanov, Bakı Dövlət Universitetinin professoru Sadıq Məmmədov və başqaları ilə dəstəlilər, haqlı olaraq, fəxr edirlər. Yeni məktəb binası isə onların davamçılarının yetişdirilməsinə imkan açacaq. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan 900 şagird yerlik məktəbdə 4-ü elektron lövhəli olmaqla, 49 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, müəllimlər və psixoloq otaqları, kitabxana, idman zalı və bufet vardır. Təhsil müəssisəsində zəngin kitabxana fondu yaradılıb. Müəllim və şagirdlərin ixtiyarına müasir elektron lövhələr və 63 kompüter verilib. Məktəbdə 2 şahmat sinfinin yaradılması bir neçə ölkə və beynəlxalq şahmat yarışında iştirak edən və mükafatlarla qayıdan məktəbin şagirdi Elçin Rzayevin ardıcıllarının yetişməsinə imkan verəcək.

Məktəbin müəllimləri ilə söhbət zamanı təkcə muxtar respublikanın deyil, ölkəmizin ən böyük kənd yaşayış məntəqələrindən biri olan, Naxçıvan-Ordubad magistral yolundan başlayaraq Araz çayına qədər uzanan bu kəndin adının mənasını elə məktəbdə öyrənmək istədik. Məktəbdə tarix fənnini tədris edən Azərbaycan Respublikasının Əməkdar müəllimi Hüseynəli Bağırov bildirdi ki, "Dəstə" adı müxtəlif mənalarda yozulur. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırova görə, bu ad əl – yəni "bir-birini tamamlayan beş barmağın hamısı" mənasında işlənir və deyilənə görə, kəndin əsası beş ailə tərəfindən qoyulduğu üçün buraya "Dəst" adı verilib. "Dəst" sözünə "ə" şəkilçisi sonradan artırılıb. "Dəstə" sözü "qulp", "bir neçə adamın bir yerdə olması" mənasını da bildirir.

Müxtəlif mənbələrə əsaslanan Q.Qeybullayev isə bu adı Zəngəzur uezdində yaşayan Xocamusaqlı tayfası ilə əlaqələndirir və "Dəstə" sözünün kənd anlamında işləndiyini yazır. Digər fikrə görə, "dəstə" – "kənd", "mülk", "bağ", "malikanə" isə "dəstə" – "tərəf", "yer" mənasındadır. "Dəstə" adı ilə bağlı belə bir inandırıcı fikir də vurğulanır ki, vaxtilə Ordubadda yerləşən qoşunun bir hissəsi müvəqqəti olaraq bu ərazidə sığınacaq aldığına görə buraya "dəstə", "alay" deyirmişlər. Güman olunur ki, hərbi hissənin yeri tədricən yaşayış məntəqəsinə çevrilib və kənd "alay" mənasını bildirən "Dəstə" sözünü özündə saxlayıb.

Böyük ziyalı qüvvəsinin cəmləşdiyi məktəbin müəllimləri vurğuladılar ki, kənddə irihəcmli quruculuq işlərinin görülməsi bir neçə il əvvəlki tədbirlərin davamıdır. Yeni məktəb binası paytaxt Naxçıvan şəhərindəki məktəb binalarından seçilmir, şagird yerinə görə isə muxtar respublikada son illərdə inşa olunmuş ən böyük obyektlərdən biridir. Elə istifadəyə verilmiş digər obyektlər də Dəstəyə qəsəbə görkəmi gətirib. Bu, dəstəlilərin məsuliyyət hissini daha da artırıb, doğma torpağa bağlılıqlarını gücləndirib.

Dəstədə istifadəyə verilən kənd mərkəzində yaşayış məntəqəsinin bütün dövlət və idarəetmə orqanları üçün müasir iş şəraiti yaradılmış otaqlar ayrılıb. Burada yeni nəsil texnologiyalara əsaslanan 704 nömrə tutumlu ATS quraşdırılıb, genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Hazırda kənddə 518 telefon və 370 internet istifadəçisi vardır.

Kənd mərkəzi ilə yanaşı olan binada ambulatoriya fəaliyyət göstərir. 11 otaqdan ibarət yeni səhiyyə müəssisəsində müasir iş otaqları kollektivin ixtiyarına verilib. Otaqlar müxtəlif tibbi avadanlıqlarla təchiz edilib. Ambulatoriyanın baş həkimi, Azərbaycan Respublikasının Əməkdar həkimi Xırdaxanım Ağayeva deyir ki, böyük yaşayış məntəqəsi olduğu üçün kənddə müasir tələblərə cavab verən səhiyyə müəssisəsinə ciddi ehtiyac var idi. Artıq bu ehtiyacımız ödənilib. Ambulatoriyanın kollektivi bizə göstərilən bu qayğı müqabilində öz işini dəstəlilərin sağlamlıqlarının qorunması istiqamətində qurmağa səy göstərir. Həm kollektivimizə, həm də dəstəlilərə göstərilən belə qayğıya görə dövlətimizə minnətdarlığımızı bildiririk.

Yeniliklərdən biri isə kənd yolunun müasir tələblər səviyyəsində işlənməsidir. Belə ki, 5,5 kilometrlik kənd yolu genişləndirilərək asfalt örtük salınıb, digər zəruri quruculuq tədbirləri həyata keçirilib, "Mədəniyyət yoldan başlanır" deyimi bu yaşayış məntəqəsində də özünü doğruldub.

Kəndin ən qocaman sakini – 95 yaşlı Şaban Qasımov: – Dəstə bu gün müasirliyə qovuşmuş yaşayış məntəqəsidir. Burada geniş quruculuq işləri aparılıb. O bildirir ki, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, dəstəli mərhum şair Hüseyn Razi hələ 30-40 il bundan əvvəl doğulub, boya-başa çatdığı kəndin bu gününü sanki görürdü:

*Xan Araz asılıb ətəklərindən,*
*Arxası söykənib Kəmki dağına.*
*Heyrətlə, vüqarla baxıram mən də*
*Dəstənin bugünkü xoş növrağına.*

*Çiçək dənizinə axır nur seli,*
*Bağ-bağat dumandan, buluddan çıxır.*
*Arazın dəlisov quzey sahili*
*Şirin nəğmələrlə sükutdan çıxır.*

Dəstə kəndində əhalinin rahatlığının təmin olunması istiqamətində



görülən kompleks tədbirlər çərçivəsində yeni xidmət mərkəzi də tikilib.

Mərkəzdə sakinlərin gündəlik tələbatını ödəyəcək zəruri xidmət sahələri fəaliyyət göstərir.

Dəstə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Zülfü Şirinovla söhbətimizi davam etdiririk. O bildirir ki, quruculuq tədbirləri bununla məhdudlaşmır. Kompleks tədbirlər çərçivəsində 5400 metr yeni içməli su xətti çəkilib, kənddaxili məhəllələrdə 20 bulaq tikilib. Kəndin rabitə, elektrik və qaz xətləri də yenilənib, 1300 metr yeraltı rabitə, 1500 metr elektrik xətti çəkilib, 8 transformator yarımstansiyası əsaslı təmir olunub. Kəndin təbii qaz təchizatı da yaxşılaşdırılıb, 390 metr yeni qaz xətti çəkilib, 8882 metrlik qaz xəttində təmir-bərpa işləri aparılıb.

*Kənd sakinləri Zeynal Zeynalov, Lətif Tağıyev və başqaları da doğma yurd yerlərinin müasirliyə qovuşmasından fərəh duyur, Ali Məclis Sədrinə minnətdarlıqlarını öz ürək sözləri ilə bildirirlər: – Yaradılan bu şərait sakinlərin rahat yaşayışına xidmət etməklə yanaşı, həm də bir kəndin timsalında ölkəmizin inkişafının göstəricisidir. Kəndin bundan sonrakı inkişafı, qurulanların qorunması isə bizim üzərimizə düşən vəzifədir. Kənd camaatı bunu dərindən dərk edir, həyata keçirilən tədbirləri yüksək dəyərləndirir, muxtar respublikamızın daha da gözəlləşməsi, çiçəklənməsi istiqamətində görülən bütün işlərdə fəallıq göstərməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər.*

**Muxtar MƏMMƏDOV**

## Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi qədim bölgənin keçmişini yaşadan mühüm saxlanc yeridir



*Tarixin yadigarları onu yaradan xalqın gələcək nəsillərə əmanət etdiyi ən etibarlı mənbələrdir. Belə dəyərli mənbələrin saxlanc yeri isə muzeylərdir. Zəngin tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi baxımından muzeylər böyük əhəmiyyətə malikdir. Hazırda muxtar respublikamızda qədim diyarımızın zəngin tarixini, mədəniyyətini özündə əks etdirən onlarla mədəniyyət müəssisəsi var. Belə müəssisələrdən biri də Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyidir.*

Öncə onu qeyd edək ki, bu gün muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirlərindən Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də öz payını alıb. Yenidən qurulan muzey ötən il dekabr ayının 20-də muxtar respublika rəhbərinin iştirakı ilə istifadəyə verilib. Biz də muzeyin yeni binası ilə yaxından tanış olmaq məqsədilə üz tutduq Şərur rayonuna.

Burada olarkən muzeyin direktoru Nuran Əliyev dedi ki, Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər görülür. Yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir, qədim diyarımızda tarixi abidələrin bərpasına daim diqqət göstərilir. Yaxın zamanlarda yenidən qurularaq istifadəyə verilən Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası da bu diqqət və qayğının bariz ifadəsidir.

Söhbət əsnasında öyrənirik ki, 1978-ci ildə rayon mədəniyyət şöbəsinin nəzdində ictimai əsaslarla yaradılan muzey 1980-ci ildə ulu öndər Heydər Əliyevin bu sahənin fəaliyyəti ilə bağlı müvafiq sərəncamından sonra dövlət müəssisəsi kimi fəaliyyətə başlayıb.

İnsan düşüncələrini qədimliklə müasirliyin vəhdətində qovuşduran muzey binasını seyr edərkən Nuran müəllimin söylədiyi maraqlı məlumatlarla bağlı qeydlərimi də aparıram. Direktor deyir ki, rayon ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən, maddi-mədəniyyət nümunələri ilə zəngin olan muzey 3 mərtəbədən və 2 ekspozisiya zalından ibarətdir. Tarixin dərin qatlarından soraq verən muzeydə 7300-dən çox eksponat qorunub saxlanılır. Nuran Əliyev bizi nümayiş olunan eksponatlarla tanış edərkən muzeyin 2-ci mərtəbəsində yerləşən birinci ekspozisiya zalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr olunan guşənin qarşısında dayanıb, ulu öndərin ölkəyə rəhbərliyi dövründə Şərur rayonuna səfərləri zamanı çəkilmiş fotoşəkillərini maraqla izləyirik.

Digər bir guşədə də nümayiş olunan maddi-mədəniyyət nümunələri olduqca diqqətçəkicidir. Muzeyin direktoru deyir ki, bu eksponatlar eramızdan əvvəlki dövrlərə aiddir və Şərur rayonunun qədim tarixini özündə əks etdirir. Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən biri olan, Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Eneolit və Erkən Tunc dövrlərinə aid edilən Ovçular təpəsi ən qədim yaşayış məskənlərindən biridir. Muzeydə həmin ərazidə





aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən eramızdan əvvəl V minilliyə aid saxsı küpə, qədim insanlar üçün inanc xarakteri daşıyan eramızdan əvvəl IV-III minilliklərə aid daş bütlər, eramızdan əvvəl IV-III minilliklərə aid daş əmək alətləri, daş dəstəklər, gürzlər, eramızdan əvvəl IV-II minilliklərə aid olan daş həvəngdəstə və digər eksponatlar yer alır. Bütün bunlar sirli-soraqlı tarixin dərin qatlarından xəbər verir. Ovçular təpəsində aşkar edilən boyunbağı Cənubi Qafqazda ən qədim zinət əşyası hesab olunur.

Nuran müəllim Şərur rayonu ərazisində Qazma mağarasının xüsusi tarixi əhəmiyyət daşıdığını vurğulayaraq deyir ki, bu mağara Naxçıvan Muxtar Respublikası ərazisində, eləcə də dünyada ən qədim insan düşərgəsi olub. Həmin ərazidə aşkar olunan maddi-mədəniyyət nümunələri Orta Daş dövrünə, yəni təqribən 80-100 min il bundan əvvələ aid edilir. Həmçinin rayonda Oğlanqala, Qız qalası, Maxta Kültəpəsi və digər tarixi yerlər də bu ərazilərin ilk insan yaşayış məskəni olduğunu sübut edir. Bunun nəticəsidir ki, muzeydə tarixin bu dövrlərinə aid eksponatlar var. Digər bir guşədə nümayiş olunan eramızdan əvvəl III minilliyə aid olan tunc bilərzik də diqqətçəkən eksponatlardandır.

Şərur rayonunun tarixi-mədəni inkişafında ən mühüm yerlərdən birini boyalı saxsı qablar tutur. Boyalı saxsı qablar polixrom və monoxrom boyalı saxsı qablar olaraq iki yerə bölünür. Onu da öyrənirik ki, hər iki vitrində nümayiş olunan, eramızdan əvvəl II minilliyə aid monoxrom boyalı naxışlı saxsı qablar həmin dövr dulusçuluğunun ən gözəl nümunələrindəndir. Qız qalası yaşayış yerindən aşkar olunmuş, tarixi eramızdan əvvəl II minilliyə gedib çıxan saxsı qablar, eyni zamanda incə sənətkarlıq xüsusiyyətləri ilə ərsəyə gətirilmiş saxsı küpələr və badyatipli gil qablar qiymətli eksponatlardandır.

Növbəti vitrinlərdə Tunc dövrünə aid məişət əşyaları nümayiş olunur. Eramızdan əvvəl II-I minilliklərə aid darboğazlı saxsı küpələr, saxsı qablar, daş möhür, gildən hazırlanmış insan fiquru və tunc silahlar olduqca maraqla qarşılanan eksponatlar sırasındadır.

Digər bir guşədə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şərur rayonuna səfəri zamanı çəkilmiş fotoşəkillər və burada söylədiyi aşağıdakı fikirlər yer alır: ***"Naxçıvanın çox qədim tarixi, zəngin mədəni irsi, gözəl ənənələri vardır. Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır".***

Azərbaycan xalçaçılığına milli töhfələr verən, rəngarəng, keyfiyyətli yundan və təbii boyaqlardan hazırlanmış xovlu və xovsuz xalça nümunələri əsrlərboyu evləri bəzəyib. Elə diqqətlə izlədiyimiz guşə də Şərurun xanım-xatın nənələrinin min bir zəhmətlə ərsəyə gətirdikləri öz gözəlliyini və zərifliyini bu günədək qoruyub saxlayan, xalqımızın dünyagörüşünü, estetik bədii zövqünü özündə əks etdirən gözoxşayan xalçalardır.

Muzeyin ikinci ekspozisiya zalının ilk guşəsində orta əsrlərə aid saxsı qapaqlı nehrə, saxsı küpə, XX əsrə aid saxsı ləyən sərgilənməkdədir. Növbəti vitrində XI-XV əsrlərə aid şirli və şirsiz saxsı və kaşı parçaları, saxsıdan hazırlanmış su borusu və qablar, dəmir nizə ucluğu və eyni dövrə aid olan işıqlandırma vasitələri – çıraqlar da ziyarətçilərin marağına səbəb olan eksponatlardandır.

Digər bir guşədə 120 illik yubileyini dövlət səviyyəsində qeyd etdiyimiz görkəmli rəssam İbrahim Səfiyevin ustalıqla yaratdığı "Avtoportret", həmçinin onun kətan üzərində yağlı boya ilə işlədiyi "Səyyar musiqiçi Hafiz", "Çörək bişirənlər", "Şəhərdə qış" adlı rəsm əsərləri ilk baxışda diqqəti cəlb edir.

Azərbaycan tarixən misgərliyin mərkəzlərindən biri olub və bu sənət Şərur rayonu ərazisində də geniş yayılıb. Elə maraqla izlədiyimiz guşədə nümayiş olunan, XIX əsrə aid mis məişət əşyaları – mis kasalar, məşqəfə dəsti, mis badya, mis lüləyinlər və başqaları da öz gözəlliyi ilə seçilir.

Önündə dayandığımız digər guşə daim ehtiramla yad edilən Şərur şəhidlərinə həsr olunub. Müstəqilliyimiz uğrunda öz canını fəda edən şərurlu şəhidlərin fotoşəkillərinin sərgiləndiyi guşə muzeyin ən dəyərli guşələrindəndir.

Qürurverici haldır ki, gündən-günə çiçəklənən, gülüstana çevrilən doğma diyarımızda bu gün daşınmaz tarix-mədəniyyət abidələri xüsusi dövlət qayğısı ilə əhatə olunub. Bunlar arasında Şərur rayonunda yerləşən abidələr də kifayət qədərdir. Onlardan XVIII əsrin sonlarında Yengicə kəndinin mərkəzində inşa olunmuş Şərq hamamı, XVII-XVIII əsrlərdə yaradılan Parçı (Xanlıqlar) İmamzadəsi və XIX əsrdə inşa olunmuş Cəlilkənd buzxanası... Elə maraqla izlədiyim növbəti guşədə də Şərur rayonu ərazisində bərpa olunan, yaxud yenidən qurulan, bir-birindən dəyərli tarixi-abidələrimizin fotoşəkilləri yer alır.

Bu gün muxtar respublika sakinlərinin təşəbbüsləri ilə evlərdə olan eksponatlar muzeylərə təqdim olunur, muzey fondları zənginləşdirilir. Şəxsi eksponatların muzeylərə təqdim olunması tarixi-mədəni irsimizin qorunmasına və daha geniş formada təbliğinə imkan verir. Nuran müəllimin sözlərinə görə, yaxın günlərdə muzeyə Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri tərəfindən qədim tariximiz və mədəniyyətimizi əks etdirən küpə, mis məişət əşyaları, daş əmək alətləri, xurcun, saxsı çıraq və digər nümunələrdən ibarət 75 eksponat təqdim edilib. Bu həm də gənc nəsildə yeni ənənənin başlanğıcını qoymaq baxımından əhəmiyyətli hadisədir.

Muzeydən ayrılarkən Ali Məclis Sədrinin muzeyin açılışı zamanı söylədiyi fikirləri xatırlayıram: ***"Muzeylər xalqımızın milli mədəniyyət nümunələrini özündə yaşadan müqəddəs yerlərdir. Ona görə də muzeylər daim zənginləşdirilməli, qorunmalı və ziyarət olunmalıdır".***

*Bəli, muzeylər keçmişimizi qoruyan, bu günə daşıyan maddi-mənəvi dəyərlər xəzinəsidir. Bu xəzinə xalqımızın çoxəsrlik tarixini, qədimliyini, milliliyini özündə əks etdirir. Tariximizi qorumaq, yaşatmaq isə hər birimizin vətəndaşlıq borcudur.*

Gülcamal TAHİROVA

## AMEA Naxçıvan Bölməsində silsilə tədbirlər keçiriləcək

*AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib.*

İclası bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq ölkəmizdə mədəniyyətin, ədəbiyyatın, incəsənətin inkişafında mühüm xidmətləri olan şəxslərin yubileylərinin keçirilməsinə göstərilən diqqət və qayğıdan danışıb. Akademik, həmçinin Prezident İlham Əliyevin 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi və Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamlar imzaladığını qeyd edib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin 150 illiyinə həsr olunmuş Tədbirlər Planını təsdiq edib.

Sonra sözügedən hər iki sərəncamla əlaqədar nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi ilə bağlı müvafiq tapşırıqlar diqqətə çatdırılıb. Qeyd olunub ki, bölmənin elmi-tədqiqat müəssisələrinin əməkdaşları kütləvi informasiya vasitələri üçün mövzu ilə əlaqədar materiallar hazırlamalı, açıq dərslər, dəyirmi masalar təşkil etməlidirlər. Bundan əlavə, bu mövzularda elmi konfrans və tədbirlərin keçirilməsi də qərarlaşdırılıb.

İclasda bölmənin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının şöbə müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynovun "Nanotexnologiya və Nanoquruluşların öyrənilməsi" mövzusunda elmi məruzəsi dinlənilib və müzakirə olunub. Laboratoriya rəhbərinə gələcəkdə aparılacaq tədqiqatların elmi səmərəliliyini yüksəltmək üçün müvafiq tapşırıqlar verilib.

Sonra bir sıra cari məsələlərə baxılıb.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

*Culfa Rayon İcra Hakimiyyətində 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncaq olub.*

## Culfa rayonunda yığıncaq olub



Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal Məmmədzadə bildirib ki, muxtar respublikada idman sahəsi daim diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür. Məhz bunun nəticəsidir ki, muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da bədən tərbiyəsi və idman müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, yeni tikilən təhsil müəssisələrində ən müasir standartlara cavab verən idman zalları və açıq idman meydançaları yaradılaraq lazımi idman qurğuları ilə təchiz edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən ötən il noyabrın 1-də Culfa Rayon Mərkəzi Stadionu əsaslı şəkildə təmir olunaraq yenidən gənclərin istifadəsinə verilib.

Qeyd olunub ki, rayonda Uşaq-gənclər şahmat məktəbi, mərkəzi futbol meydançası, 10 kənd futbol meydançası, 6 məktəb stadionu var. Burada muxtar respublikadakı 12 idman federasiyasından 11-nin bölməsi fəaliyyət göstərir. Bu gün mövcud olan idman infrastrukturu rayonda federasiya şöbələrinin fəaliyyəti üçün lazım olan bütün tələblərə cavab verir. Yaradılmış şərait, bu sahəyə dövlət qayğısı idmanın kütləviliyinə öz təsirini göstərir.

Diqqətə çatdırılıb ki, rayonda 7 yaşdan 18 yaşadək olan yeniyetmə və gənclərdən 3597-si idmanla məşğul olur. Onlardan 14-ü sağlamlıq imkanları məhdud şəxslərdir. İdmançılarımız son illər həm ölkə, həm də beynəlxalq səviyyəli yarışlarda iştirak edərək rayonu layiqincə təmsil edirlər.

Qarşıda duran vəzifələrdən də bəhs edən icra başçısının müavini vurğulayıb ki, qazanılan uğur və nailiyyətlərə baxmayaraq, istedadlı idmançıların üzə çıxarılması, federasiyalarla birgə iş və digər sahələrdə nöqsanlar qalmaqdadır. Cari ildə federasiyaların rayon bölmələri Culfa Rayon Gənclər və İdman İdarəsi ilə birgə iş qurmalı, müxtəlif yarışlar təşkil olunmalıdır. Rayon Uşaq-gənclər şahmat və idman məktəbləri işlərində dönüş yaratmalı, Təhsil Şöbəsi ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarəti daha da gücləndirməli, məktəblilərin fiziki cəhətdən sağlam böyümələri üçün səylə çalışmalıdır.

Yığıncaqda rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elçin Cəfərov, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Culfa rayon bölməsinin sədri Mehdixan Əliyev və Paralimpiya Federasiyasının rayon bölməsinin sədri Mustafa Cəlilovun çıxışları olub.

Sonda 2018-ci ildə müxtəlif idman növlərində fərqlənən məşqçi-müəllim və idmançılara hədiyyələr təqdim olunub.

Ceyhun MƏMMƏDOV

# Yaradıcı təfəkkürlü uşaq və gənclərimizin maraq dünyasının ünvanı



*Muxtar respublikamızda 36 məktəbdənkənar müəssisə fəaliyyət göstərir ki, onlardan da 6-sı paytaxt Naxçıvan şəhərinin payına düşür. Həmin müəssisələr arasında fəaliyyət imkanlarının genişliyi baxımından Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi xüsusilə seçilir.*

Şəhərimizin qoynunda, bir-birindən yaraşıqlı tikililərin əhatəsində, hər gün yüzlərlə uşağın sevə-sevə üz tutduğu məkan – Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin əzəmətli binası ucalır. Yetişməkdə olan nəslin yaradıcılıq yoluna, bədii təfəkkürünə işıq salan həmin mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə adıçəkilən ünvana yollanırıq. Binanın qarşısındakı ağaclar arasında ikibir, üçbir toplaşan uşaqların bir-biriləri ilə şirin söhbəti, aralarındakı kiçik müzakirələr diqqətimi çəkir. Məktəblilərdən biri əlindəki kağız-qələmlə yoldaşına nəyisə izah edir, digəri müxtəlif hərəkətlərlə sanki rəqs elementlərini göstərir, başqası musiqi notlarının adlarını uca tonla təkrarlayırdı. Qısa müşahidələrdən mərkəzdə məşğələlərin maraqlı keçirildiyi açıqca görünürdü.

Mərkəzin fəaliyyəti ilə tanışlıq zamanı öyrəndim ki, 1979-cu ildə Naxçıvan şəhər pionerlər evi kimi yaradılan məktəbdənkənar müəssisə 2009-cu il mart ayının 19-dan etibarən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi adı ilə fəaliyyət göstərir. Mərkəzin ulu öndərin adını daşıması əməkdaşların üzərinə böyük məsuliyyət qoyur, onları daha səylə çalışmağa sövq edir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, *"Uşaqlar bizim gələcəyimizdir"*, – deyən ümummilli lider Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində balacalara böyük qayğı ilə yanaşıb. Məhz dahi siyasətçinin rəhbərliyi ilə uşaq və yeniyetmələrin sağlam-düşüncəli, hərtərəfli biliyə malik yetişmələri istiqamətində bir sıra tədbirlər həyata keçirilib, fərman və sərəncamlar imzalanıb. Bu siyasət hazırda muxtar respublikamızda uğurla davam etdirilir.

Mərkəzin direktoru Murad Babayev bizimlə söhbət zamanı dedi ki, bu gün kütləvi informasiya vasitələrindən dünyanın bir sıra ölkələrində uşaqların, yeniyetmə və gənclərin ehtiyac içində yaşamaları, zərərli vərdişlərlə böyümələri ilə bağlı məlumatlar alırıq. Aparılan araşdırmalar göstərir ki, belə xoşagəlməz vəziyyətlərin əksəriyyəti valideynlərin etinasızlığı üzündən baş verir. Böyüklər övladlarının istək və arzularını nəzərə almır, onları müasir dövrün naqislikləri ilə baş-başa buraxırlar. Belə olduqda gələcək nəsil düzgün formalaşmır, həmyaşıdlarından həm fiziki, həm də psixoloji cəhətdən geri qalır. Çox gözəl haldır ki, doğma diyarımızda sağlam gələcəyimizə hesablanmış məqsədyönlü tədbirlər görülür, uşaqlar erkən yaşdan bilik və bacarıq aşılayan müəssisələrə yönəldilir. Təcrübə göstərir ki, məktəbdənkənar müəssisələrdə fəaliyyət göstərən dərnəklərə üz tutanların fiziki və mənəvi inkişaf səviyyəsi artır, onlarda pis vərdişlərə meyil yaranmır, sağlam həyat tərzi formalaşır.

Murad Babayev onu da bildirdi ki, hazırda mərkəzdə 5 adda şöbə, 53 adda dərnək təşkil olunub. Bu dərnəklərdə 2000-ə yaxın şagirdin yaradıcılıq imkanları inkişaf etdirilir. Məşğələlərdə uşaq və yeniyetmələrə rəssamlıq, bədii tikmə, rəqs, musiqi və digər yaradıcı sənət sahələrinin incəlikləri nəzəri biliklər və praktik vərdişlərlə mükəmməl şəkildə öyrədilir. 2018-2019-cu tədris ilində "Nağıl və debat", "Həyat bilgisi" və "Yol hərəkəti qaydaları" adlı yeni dərnəklər açılıb. Həmçinin yaradıcı təfəkkürlər və bacarıqlar nəzərə alınaraq gələcəkdə "Xalçaçılıq", "Dərzilik" "Dram", "Muğam", "Solo" və digər dərnəklərin yaradılması da nəzərdə tutulub. Bundan əlavə, tədris ilinin əvvəlində tədbirlər planı hazırlanıb, buna uyğun olaraq əlamətdar gün və bayramlarda uşaqların iştirakı ilə müxtəlif tədbirlər təşkil olunur. Eyni zamanda mütəmadi olaraq dərnək üzvlərinin iştirakı ilə təbiət qoynunda müxtəlif səpkili görüşlərin keçirilməsi, mərkəzdə tarix və mədəniyyətimizi əks etdirən filmlərin nümayiş olunması məktəblilərin cəmiyyətə yararlı, Vətənə layiqli gənclər kimi yetişmələrinə xidmət edir.

Müəssisə ilə tanışlıqdan o da məlum oldu ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq mərkəzin əməkdaşları ümumtəhsil məktəbləri ilə əlaqə saxlayaraq bu kateqoriyadan olan uşaqları da dərnəklərə cəlb edirlər. Hazırda burada, ümumilikdə, 20 sağlamlıq imkanları məhdud uşağın iştirakı ilə "Aplikasiya", "Dekorativ rəsm", " Yumşaq oyuncaqlar", "Stolüstü tennis" dərnəkləri yaradılıb.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi artıq uzun illərdir ki, diyarımızda xüsusi qayğı ilə böyüməkdə olan nəslin sevimli ünvanına çevrilib. İnanırıq ki, bu gün həmin mərkəzdə bilik və bacarığını inkişaf etdirən azyaşlı uşaq gün gələcək tanınmış sənət adamı kimi yetişəcək və muxtar respublikanı mötəbər tədbirlərdə ən yüksək səviyyədə təmsil edəcək.

✍ **Nail ƏSGƏROV**

# Gənclər Günü qeyd olunub





*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şahbuz Rayon Mədəniyyət Sarayında Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı Kənan Tağızadə açaraq bildirib ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün muxtar respublikamızda da uğurla həyata keçirilir. Onların milli ruhda tərbiyəsi, ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli daim diqqət mərkəzində saxlanılır.

Tədbirdə Şahbuz Rayon Gənclər və İdman İdarəsinin rəisi İdris Qəhrəmanov və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Gənclər Birliyinin sədri Vüqar Muradov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Şahbuz rayonunun gəncləri sosial-mədəni həyatda daim fəallıqları ilə seçilirlər. Əlamətdar günlərlə bağlı bütün tədbirlərdə yaxından iştirak edir, hər il Gənclər Gününü yüksək əhval-ruhiyyə ilə qeyd edirlər.

Gənclər Gününə həsr olunmuş tədbir Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin konserti ilə davam edib.

Qeyd edək ki, orkestrin bədii rəhbəri və baş dirijoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Məmmədovdur. Konsertdə orkestrin solistlərindən Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva, Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Azər Cəfərli, Elçin Nağıyev, müğənnilərdən Ruhiyyə Hüseynova, Rahim Əsgərzadə, İlkin Abdullayev, Samir İsmayılovun ifalarında Azərbaycan bəstəkarlarının mahnıları səslənib, vals, tanqo və estrada musiqiləri tədbir iştirakçılarında bayram ovqatı yaradıb.

Sonda rayonda müxtəlif sahələrdə fərqlənən gənclər fəxri fərmanla təltif olunublar.

**Əli RZAYEV**

*Dünən Ordubad Rayon Mərkəzi Xəstəxanasında ana və uşaqların sağlamlığının qorunmasına dair seminar-treninq keçirilib.*

# Seminar-treninq keçirilib

Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər muxtar respublikamızda bu sahədə mühüm tədbirlər həyata keçirilib, ana və uşaqlara tibbi xidmət göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb. İstifadəyə verilən kənd həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin hər birində zəruri avadanlıqlarla təchiz edilmiş doğuş otaqları yaradılıb.

Samrat Gəncəyeva qeyd edib ki, Səhiyyə Nazirliyinin bu ilin noyabr ayında keçirilən kollegiya iclasında doğuşayardım xidmətinin yaxşılaşdırılması məqsədilə bir sıra vəzifələr müəyyənləşdirilib. Bununla bağlı rayonlarda ginekoloqların və mama tibb bacılarının iştirakı ilə seminarların keçirilməsinə başlanılıb. Babək, Culfa və Şahbuz rayonlarında keçirilən tədbirlərdə müəyyən edilən vəzifələrin icrası istiqamətində mühüm işlər görülüb. Ginekoloji xəstəliklərin vaxtında aşkar edilməsi, qeydiyyatının aparılması, qadınların vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsi, aşkar edilən xəstəliklərin müalicə işinin düzgün və səmərəli qurulması üçün profilaktik müayinə tədbirləri diqqətdə saxlanılıb, reproduktiv sağlamlıq və ailə planlaşdırılması məsələlərinə nəzarət daha da gücləndirilib. Hamilələrin qeydiyyatı işinin daha da yaxşılaşdırılması məqsədilə mama-ginekoloji şöbələrdə hamilələrin elektron reyestri yaradılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin sahə mama-ginekoloqu Vüsalə Babayeva hamilələrin reyestrinin təşkilində müasir metodların tətbiqi ilə ələqədar məlumat verib.

Tədbirdə müzakirələr aparılıb, suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Şahmatçılarımız böyük uğura imza atıblar



*Astara Olimpiya-İdman Kompleksində şahmat üzrə Azərbaycan çempionatının seçmə yarışları keçirilib.*

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda ölkəmizin 36-dan çox şəhər və rayonunu təmsil edən 260 şahmatçı iştirak edib.

İsveçrə sistemi üzrə keçirilən çempionatda zəka sahibləri 9 turda yarışıblar. Reqlamentə əsasən turnir cədvəlini ilk 5 pillədə başa vuran şahmatçılar ölkə birinciliyinə vəsiqə qazanıblar.

Yarışda Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 30 zəka sahibi də mübarizə aparıb və onlardan 8-i müxtəlif yaş qruplarında uğur qazanaraq ölkə birinciliyində iştirak etmək hüququ əldə edib. Belə ki, 8 yaşlı qızların mübarizəsində Nigar Qənbərli (1181, Babək), oğlanların mübarizəsində isə Ayxan Məhərrəmli (1049, Şahbuz) 9 oyunda 6 xal toplayaraq turnir cədvəlini 5-ci pillədə başa vurub və vəsiqəni təmin ediblər. Bu nəticəni 10 yaşlı oğlanların mübarizəsində Hüseyn Qənbərli (1262, Babək) də təkrarlayıb. 12 yaşlı oğlanların mübarizəsində isə Hüseyn Seyid (1525, Ordubad) 7 xalla öz yaş qrupunda çempion olub. Bu yaş qrupunda digər iki idmançımız Uğur Həsənli (1287, Ordubad) və Zahid Allahverdiyev (1534, Naxçıvan) 6,5 xalla 4 və 5-ci pillələri bölüşüblər. 14 yaşlı qızlardan Nəsrin Babayeva (1427, Naxçıvan) 7 turdan sonra 5,5 xal toplayaraq çempion adını qazanıb. Bu yaş qrupunda oğlanların mübarizəsi daha gərgin olub. Belə ki, Sadiq Qarayev (1743, Naxçıvan) liderdən cəmi yarı xal az toplayıb və 6,5 xalla üçüncü yerlə kifayətlənib. Eyni zamanda bu yaşda Ərturan İsmayılov (1478, Naxçıvan) 6 xal qazanıb və ölkə birinciliyinə vəsiqəni təmin edib. 16 yaşlı qızların mübarizəsində isə Yeganə Əhmədova (1530, Şərur) 4-cü olub.

Bununla muxtar respublika idmançıları ölkə birinciliyinə 10 vəsiqə qazanıblar.

Qeyd edək ki, daha öncə digər zəka sahibimiz, FİDE ustası Sadiq Məmmədov da ölkə birinciliyinin final mərhələsində iştirak etmək hüququ qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

# AMEA Naxçıvan Bölməsi Elmi-Tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında ştatda boş olan şöbə müdiri və laboratoriya rəhbəri vəzifələrini tutmaq üçün müsabiqə elan edir

**Tarix Etnoqrafiya və Arxeologiya İnstitutu**

Qədim dövr arxeologiyası şöbəsi – şöbə müdiri – 1 yer

Qafqaz tarixi şöbəsi – şöbə müdiri – 1 yer

**Bioresurslar İnstitutu**

Meyvə, tərəvəz və üzümçülük laboratoriyası – laboratoriya rəhbəri – 1 yer

Nəbatat şöbəsi – şöbə müdiri – 1 yer

Bitki sistematikası şöbəsi – şöbə müdiri – 1 yer

Torpaq ehtiyatları laboratoriyası – laboratoriya rəhbəri – 1 yer

***Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi Təhsil və kadrlar şöbəsi. Telefonlar: 544-65-97; 545-16-80***

***İtmişdir***

Nehrəm kənd sakini Bağırov Əsəd Firudin oğlunun adına olan $1763^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***Bildiriş***

"Rai Klub" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200534781) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*

*Şöbələr: 545-81-44, 545-51-18*

*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*

E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Mətanət Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 97